Azərbaycan Respublikasının Prezidenti

yanında Elmin İnkişafı Fonduna

**Mobillik qrantının qalibi Rüfət Quliyevin**

**Yaponiyaya səfəri haqqında**

**HESABAT**

Mən Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə Yaponiyanın Yokohama şəhərində 2014-cü il iyulun 13-dən 19-dək keçirilmiş XVIII Ümumdünya Sosiologiya Konqresində iştirak etmişəm.

Konqresdə mən " Transformasiya olunan Azərbaycanda sosial inteqrasiya problemi" mövzusunda Elmi Sessiyanı təşkil etmişəm , ona rəhbərlik etmişəm və "Müasir şəraitdə qanunvericilikdə ictimai iştirak" Elmi Sessiyasında "Transformasiya olunan Azərbaycan cəmiyyətində məhkəmə islahatlarının rolu" mövzusunda şifahi məruzə ilə çıxış etmişəm.

Azərbaycanın uğurlu sosial siyasətinə həsr olunmuş rəhbərlik etdiyim Elmi Sessiya Ümumdünya Sosiologiya Konqresi iştirakçılarının böyük marağına səbəb oldu. Dünyanın tanınmış universitetlərinin, aparıcı elmi mərkəzlərinin ,qeyri-hökümət təşkilatlarının və sosiologiya sahəsində fəaliyyət göstərən digər qurumlarının 250-dən artıq alim və mütəxəssisləri Elmi Sessiyada iştirak etdilər.

Azərbaycan sosioloqları ilə yanaşı bizim Elmi Sessiyada bir çox ölkələrin görkəmli sosioloq-alimləri Azərbaycanın inkişafında ölkəmizin bütün sosial qruplarının fəal iştirakı haqqında məzmunlu çıxışlar etdilər. Azərbaycan Elmi Sessiyasında çıxış edən İtaliyanın Roma Universitetinin professoru Roberto Kipriani , Trento Universitetinin professorları Martina Kvayner və Cüseppe Skiortino,Almaniyanın Veçta Universitetinin professoru Kristina Hanner-Kreisel və Bergiş Universitetinin professoru Doris Buhler-Niderberger,Kosovanın Priştina Universitetinin professoru Şəmsi Krasniqi və Qazaxstanın Avrasiya Milli Universitetinin professoru Aygül Zabirova Azərbaycanın sosial inteqrasiya sahəsində qazandığı təcrübənin dünya ölkələri üçün böyük önəm daşıdığını qeyd

etdilər və bu təcrübənin dünyanın başqa ölkələrində də tətbiq edilməsi zərurətini xüsusi vurğuladılar.

Konqres çərçivəsində mən eləcə də "Müasir şəraitdə qanunvericilikdə ictimai iştirak" Elmi Sessiyasında "Transformasiya olunan Azərbaycan cəmiyyətində məhkəmə islahatlarının rolu" mövzusunda şifahi məruzə ilə çıxış etdim.Məruzəm kommunist rejimindən yaxa qurtarıb demokratik cəmiyyət quran ölkəmizdə həyata keçirilən məhkəmə islahatlarının roluna həsr edilmişdi.Mən Konqres iştirakçılarına Azərbaycanda aparılan məhkəmə islahatları təcrübəsindən,bu sahədə yeni qanunvericiliyin yaradılmasından, qanunun aliliyinin təmin olunmasından ,insan hüquqlarının qorunmasından, azad iqtisadiyyatın inkişafından , korrupsiyaya qarşı barışmaz mübarizənin aparılmasından və bütün bu proseslərin müvəffəqiyyətlə həyata keçirilməsində məhkəmələrin rolunun artırılmasından bəhs etdim.Sessiya iştirakçıları çıxışımda səslənən məlumatlara böyük maraq göstərdilər,suallar verdilər və çıxış ətrafında müzakirələrdə fəal iştirak etdilər.

Bütövlükdə mənim Yaponiyanın Yokohama şəhərində keçirilmiş XVIII Ümumdünya Sosiologiya Konqresinə səfərimlə bağlı nəzərdə tutulan vəzifələr tam yerinə yetirilmişdir.Bununla əlaqədar mənim bu heasabatımı qəbul etməyinizi xahiş edirəm.

Rüfət Quliyev

Azərbacan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Sorğu" Sosioloji Araşdırmalar İnstitutunun direktoru

4.08.2014.